“FOODCITY AGROPARK” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Hazırlanmış Konsolidə edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi

31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

NR ProAudit
AUDIT & CONSULTING FIRM

“FOODCITY AGROPARK” MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

MÜNDƏRİCAT

	Səhifə
KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI 31 DEKABR 2025-CI İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ	1
MÜSTƏQİL AUDİTORLARIN RƏYİ	2-5
31 DEKABR 2025-CI İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARI:	
Maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat	6
Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabat	7
Kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat	8
Pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabat	9
Konsolidə edilmiş maliyyə hesabatları üzrə qeydlər	10-42

KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

Bu bəyannamə "Foodcity Agropark" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) və onun tabeliyində olan müəssələrin (birlikdə "Qrup") Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") əsasında hazırlanmış konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı Cəmiyyətin rəhbərliyi və müstəqil auditorun məsuliyyətlərini fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik 31 dekabr 2025-ci il tarixinə Qrupun maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə əməliyyat nəticələrini, kapitalda dəyişiklikləri və pul vəsaitlərinin hərəkətini düzgün şəkildə əks etdirən konsolidə edilmiş maliyyə hesabatlarının Mühasibat Uçotunun Beynəlxalq Standartları Şurası tərəfindən dərc olunmuş MHBS Mühasibat Uçotu Standartlarına (MHBS Mühasibat Uçotu Standartları) uyğun olaraq hazırlanması üçün məsuliyyət daşıyır.

Konsolidə edilmiş maliyyə hesabatlarının hazırla nması zamanı rəhbərlik aşağıda göstərilənlər üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi;
- Konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanması və ya hər hansı bir kənarlaşma varsa onun konsolidə edilmiş maliyyə hesabatlarında bəyan edilməsi və izahı; və
- Yaxın gələcəkdə Qrup işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə konsolidə edilmiş maliyyə hesabatlarının fasiləsizlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Qrup daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi;
- Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq düzgün hazırlanması və Qrupun konsolidə edilmiş maliyyə hesabatlarını istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi;
- Yerli mühasibat sisteminin Azərbaycan Respublikasının qanunvericiliyi və mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin mühafizə edilməsinin təşkil olunması; və
- Fırıldaqçılıq, xətalar və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

31 dekabr 2025-cI il tarixində başa çatmış il üzrə konsolidə edilmiş maliyyə hesabatları 10 iyul 2026-cı il tarixində rəhbərlik tərəfindən dərc edilməsi təsdiq edilmişdir.

Rəhbərlik tərəfindən:

Anar Ağayev
Baş icraçı direktor

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Orxan İsmayılzadə
Baş mühasib

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

Nijat Rahimov
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"Foodcity Agropark" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarlarına və Rəhbərliyinə:

Şərti Müsbət Rəy

Biz "Foodcity Agropark" Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra "Cəmiyyət" adlandırılacaq) və onun tabeliyindəki müəssisələrin (birlikdə "Qrup") 31 dekabr 2025-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında konsolidə edilmiş hesabatdan, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, Şərti Müsbət Rəy üçün Əsas paraqrafında təsvir edilən məsələ istisna olmaqla, əlavə edilmiş konsolidə edilmiş maliyyə hesabatları Qrupun 31 dekabr 2025-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

Şərti Müsbət Rəy üçün Əsas

Biz, Qrupun 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə mal-material ehtiyatlarının sayım prosesini müşahidə edə bilməmişik, çünki Qrup tərəfindən illik mal-material ehtiyatının sayım prosesi bizim auditor təyin olunma tarixindən daha əvvəl həyata keçirilmişdir. Bizə həmçinin 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatda müvafiq olaraq, 1,549,211 AZN və 837,876 AZN məbləğlərində göstərilmiş mal-material ehtiyatlarının sayı ilə əlaqədar digər vasitələrdən də istifadə imkanı təqdim olunmamışdır. Bu səbəbdən, uçota alınmış və ya alınmamış mal-material ehtiyatlarının qalıqları, eləcə də, məcmu gəlir, kapitalda dəyişiklik və pul vəsaitlərinin axını haqqında konsolidə edilmiş maliyyə hesabatları ilə əlaqəli hər hansı bir düzəlişin olub-olunmamasını müəyyən edə bilməmişik.

Torpaq, tikili və avadanlıqların 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə qalıq dəyərləri müvafiq olaraq 99,388,752 AZN və 107,989,864 AZN olmuşdur. Qrup "Aktivlərin qiymətdən düşməsi" adlı 36 saylı Mühasibat Uçotunun Beynəlxalq Standartının tələbinə görə 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə Torpaq,tikili və avadanlıqların dəyərsizləşmə testini həyata keçirmədiyinə görə torpaq, tikili və avadanlıqların dəyəri ilə bağlı əlavə edilmiş maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında konsolidə edilmiş hesabat, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatda hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilməmişik.

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

Nijat Rahimov
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

Biz qrupun 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə qalıq dəyərləri müvafiq 85,659,088 AZN və 81,852,002 AZN olan səhmdarlara ödəniləcək vəsaitlər qalığın dəyəri ilə bağlı kifayət qədər audit sübutu əldə edə bilmədiyimizdən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında konsolidə edilmiş hesabat, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatda hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilməmişik.

Biz qrupun 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə qalıq dəyərləri müvafiq 6,579,667 AZN və 8,573,268 AZN olan Verilmiş qısamüddətli avanslar üzrə qalığın dəyəri ilə bağlı kifayət qədər audit sübutu əldə edə bilmədiyimizdən maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabat, həmin tarixdə başa çatmış il üzrə məcmu gəlir haqqında konsolidə edilmiş hesabat, kapitalda dəyişikliklər haqqında konsolidə edilmiş hesabat və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatda hər hansı düzəlişlərin zəruri olub-olmadığını müəyyən edə bilməmişik.

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə dair etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Qrupun asılı deyilik və biz digər etik öhdəliklərimizi MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Fəaliyyətin fasiləsizliyi ilə bağlı əhəmiyyətli qeyri-müəyyənlik

Rəyimizi dəyişdirmədən, konsolidə edilmiş maliyyə hesabatlarına əlavə edilmiş 3 nömrəli qeydə diqqət çəkirik. Həmin qeyddə açıqlanır ki, Qrup maliyyə hesabatlarını fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən hazırlamışdır. Bununla belə, Qrup bir neçə hesabat ili ərzində əməliyyat zərəri etmiş və 31 dekabr 2025-ci il tarixinə yığılmış zərər formalaşdırmışdır. Bundan əlavə, Qupun cari fəaliyyətindən əldə olunan pul vəsaitləri əməliyyat xərclərinin maliyyələşdirilməsi üçün kifayət etmədiyindən, fəaliyyət əsasən səhmdarlardan cəlb edilmiş borc vəsaitləri hesabına maliyyələşdirilir.
Bu hallar, 3 nömrəli qeyddə açıqlanan digər məsələlərlə birlikdə, Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyəti ilə bağlı əhəmiyyətli şübhə yarada biləcək qeyri-müəyyənliyin mövcud olduğunu göstərir. Rəyimiz bu məsələ ilə bağlı dəyişdirilmir.

Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti

Rəhbərlik, konsolidə edilmiş maliyyə hesabatlarının MHBS Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

Nijat Rahimov
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

Konsolidə edilmiş maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Qrupu ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Konsolidə Edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz, həmçinin:

- Konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib olan audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;

NR ProAudit
— AUDIT & CONSULTING FIRM —

NR ProAudit LLC
8 Izmir street, Hyatt Tower 3, 3rd floor
office@proaudit.az

Nijat Rahimov
Audit Partner
nijat.rahimov@proaudit.az
tel: +994503585354

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin konsolidə edilmiş maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti NR PROAUDİT Limited Liability Company Azerbaijan Republic

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNƏ

(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
AKTİVLƏR			
Uzunmüddətli aktivlər:			
Torpaq, tikili və avadanlıqlar	8	99,388,752	107,989,864
Qeyri-maddi aktivlər		6,381	9,710
Birgə müəssisələrə investisiyalar	9	433,435	2,000,000
Cəmi uzunmüddətli aktivlər		**99,828,568**	**109,999,574**
Cari aktivlər:			
Pul vəsaitləri və onların ekvivalentləri	10	1,060,203	1,968,529
Debitor borcları və digər alınacaq vəsaitlər	11	2,394,952	1,910,247
Əmanətlər	12	-	255,679
Digər cari aktivlər	13	9,277,236	10,847,799
Cəmi cari aktivlər		**12,732,391**	**14,982,254**
CƏMİ AKTİVLƏR		**112,560,959**	**124,981,828**
ÖHDƏLİKLƏR VƏ KAPİTAL			
KAPİTAL:			
Nizamnamə kapitalı	14	63,192,427	59,611,067
Yığılmış zərərlər		(48,706,691)	(35,326,959)
Qeyri-nəzarət payları		(2,842,728)	(1,649,705)
CƏMİ KAPİTAL		**11,643,008**	**22,634,403**
ÖHDƏLİKLƏR:			
Uzunmüddətli öhdəliklər:			
Təxirə salınmış gəlir		-	1,314,984
Səhmdarlara ödəniləcək vəsaitlər	15	85,659,088	81,852,002
Əlaqəli tərəflərdən alınmış borclar	16	4,752,414	4,499,800
Cəmi uzunmüddətli öhdəliklər		**90,411,502**	**87,666,786**
Qısamüddətli öhdəliklər:			
Kreditor borcları və digər ödəniləcək vəsaitlər	17	4,468,876	4,123,490
Borc alınmış vəsaitlər	18	298,742	5,022,859
Əlaqəli tərəflərdən alınmış borclar	16	2,179,166	1,647,643
Digər cari öhdəliklər	19	3,559,665	3,886,647
Cəmi qısamüddətli öhdəliklər		**10,506,449**	**14,680,639**
CƏMİ ÖHDƏLİKLƏR		**100,917,951**	**102,347,425**
CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL		**112,560,959**	**124,981,828**

Rəhbərlik tərəfindən:

Anar Ağayev
Baş icraçı direktor

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Orxan İsmayılzadə
Baş mühasib

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

"FOODCITY AGROPARK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT

31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

(Əksi qeyd olunmadığı təqdirdə, Azərbaycan manatı ilə)

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
Gəlir	20	8,733,288	6,810,885
Maya dəyəri	21	(12,894,032)	(11,708,851)
Ümumi zərər		**(4,160,744)**	**(4,897,966)**
Ümumi və inzibati xərclər	22	(6,597,396)	(7,853,083)
Əməliyyat zərəri		**(10,758,140)**	**(12,751,049)**
Maliyyə gəliri		16,101	1,679
Maliyyə xərci		(4,747,154)	(4,940,251)
Birgə müəssisələrin maliyyə nəticələrində pay		330,435	100,000
Xarici valyuta üzrə gəlir/(xərc), xalis		(305,987)	97,959
Digər gəlirlər/(xərclər), xalis		891,990	(724,211)
İl üzrə xalis zərər		**(14,572,755)**	**(18,215,873)**
İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR		**(14,572,755)**	**(18,215,873)**
Məcmu zərər aiddir:		(13,379,732)	(17,541,361)
Qrupun səhmdarlarına		(1,193,023)	(674,512)
Qeyri-nəzarət payları			
		(14,572,755)	**(18,215,873)**

Rəhbərlik tərəfindən:

Anar Ağayev
Baş icraçı direktor

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Orxan İsmayılzadə
Baş mühasib

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

"FOODCITY AGROPARK" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

(Əksi qeyd olunmadığı halda, Azərbaycan manatı ilə)

	Nizamnamə kapitalı	Yığımış zərərlər	Qeyri-nəzarət payları	Cəmi kapital
1 yanvar 2014-cü il	**59,611,067**	**(17,785,598)**	**(975,193)**	**40,850,276**
İl üzrə cəmi məcmu zərər	-	(17,541,361)	(674,512)	(18,215,873)
31 dekabr 2024-cü il	**59,611,067**	**(35,326,959)**	**(1,649,705)**	**22,634,403**
Nizamnamə kapitalının artırılması	3,581,360	-	-	3,581,360
İl üzrə cəmi məcmu zərər	-	(13,379,732)	(1,193,023)	(14,572,755)
31 dekabr 2025-ci il	**63,192,427**	**(48,706,691)**	**(2,842,728)**	**11,643,008**

Rəhbərlik tərəfindən:

Anar Ağayev
Baş icraçı direktor

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Orxan İsmayılzadə
Baş mühasib

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.

	Qeydlər	31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə	31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə
ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:			
Müştərilərdən daxil olan məbləğlər		8,883,595	6,326,010
Mallar və xidmətlərə görə xaricolmalar		(5,268,776)	(4,579,646)
Əməkhaqqı və əlaqədar xərclər üzrə ödənişlər		(5,154,081)	(4,980,123)
Əməliyyat fəaliyyətindən yaranan xalis pul vəsaitləri		**(1,539,262)**	**(3,233,759)**
İNVESTİSİYA FƏALİYYƏTİNDƏN ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:			
Torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin satın alınması		(23,864)	(72)
Birgə müəssisələrə əlavə qoyuluş		-	(1,700,000)
Birgə müəssisələrin silinməsindən əldə olunan vəsaitlər		1,897,000	-
Banka yerləşdirilmiş müddətli əmanətlər		-	(254,000)
Banka yerləşdirilmiş müddətli əmanətlərin geri alınması		254,000	-
Faiz gəlirləri		17,780	1,679
İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri		**2,144,916**	**(1,952,393)**
MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTİNDƏN DAXİL OLAN PUL VƏSAİTLƏRİ:			
Grant üzrə daxilolmalar		-	1,314,984
Nizamnamə kapitalının artırılması		3,581,360	-
Əlaqəli tərəflərdən alınmış borclar üzrə daxilolmalar		68,000	-
Borc alınmış vəsaitlər üzrə daxilolmalar		5,000,000	9,158,000
Borc alınmış vəsaitlərinüzrə ödənişlər		(9,701,258)	(9,211,765)
Borc alınmış vəsaitlər üzrə cərimə ödənişləri		(214,259)	-
Ödənilmiş faiz		(246,789)	(458,776)
Maliyyələşdirmə fəaliyyətindən yaranan/(maliyyələşdirmə fəaliyyətində istifadə edilən) xalis pul vəsaitləri		**(1,512,946)**	**802,443**
Məzənnə fərqlərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(1,034)	294
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ ÜZRƏ XALİS (AZALMA)		(908,326)	(4,383,415)
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, İLİN ƏVVƏLİNƏ	**10**	**1,968,529**	**6,351,944**
PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ, İLİN SONUNA	**10**	**1,060,203**	**1,968,529**

Anar Ağayev
Baş icraçı direktor

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

Orxan İsmayılzadə
Baş mühasib

30 iyun 2026-cı il
Bakı, Azərbaycan Respublikası

10-41-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz tərkib hissəsini təşkil edir.